**Bioloji aktiv qida məhsulları ilə bağlı aparılmış monitorinqlərə dair məlumat**

**(5 sentyabr 2024)**

Bioloji aktiv qida məhsullarında kənar maddələrə dair Monitorinq Planına uyğun olaraq, Bakı şəhərində fəaliyyət göstərən bioloji aktiv qida məhsullarının (BAQM) satışı həyata keçirilən apteklərdə Qida Təhlükəsizliyi Agentliyi tərəfindən aparılmış monitorinqlər çərçivəsində **29** ədəd BAQM-dan nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasında tərkibində qadağan olunmuş kənar maddələrin təyini üzrə müayinələrə cəlb edilib.

Müayinələr nəticəsində **2** şirkətin idxal etdiyi **3** məhsul nümunəsində BAQM-a xas olmayan və yalnız dərman vasitələrində mövcud olan kənar maddələr aşkar edilib.

Bununla əlaqədar, uyğunsuzluq aşkar edilmiş məhsulları idxal edən müəssisələrdə Agentlik tərəfindən yoxlamalar keçirilib. Belə ki, “Kenzo Man” və “Sessoday” əmtəə nişanlı məhsulları idxal edən “Bion Medical” MMC-də keçirilmiş plandankənar yoxlama zamanı sınaq nəticələrində uyğunsuzluq aşkar edilmiş və anbarda mövcud olan **1046** ədəd “Sessoday” əmtəə nişanlı BAQM-ın satışının qadağan edilməsi, həmin məhsulların dövriyyədən çıxarılması və aptek şəbəkələrindən geri çağırılması ilə bağlı məhdudlaşdırıcı qərar qəbul edilib və icra üçün sahibkara təqdim olunub, sahibkar barəsində qanunvericiliyə uyğun olaraq inzibati tədbir görülüb.

Eyni zamanda "Klavin Platinum" əmtəə nişanlı məhsulu idxal edən “Miral” MMC-də Agentlik tərəfindən plandankənar yoxlamanın aparılması üzrə prosedurlar icra olunmaqdadır.

Bundan əlavə, Agentlik tərəfindən aptek şəbəkələrinin rəhbərlərinə bu məhsulların satışdan kənarlaşdırılaraq idxalçı (təchizatçı) müəssisəyə geri qaytarılması barədə xəbərdarlıq məktubu ünvanlanıb.

Uyğunsuzluq aşkar edilmiş məhsullar aşağıdakılardır:

<table>
<tr><th>Məhsulun adı</th><th>İstehsalçı</th><th>İdxalçı</th><th>Məhsulun partiya/seriya nömrəsi, istehsal və son istifadə tarixi</th><th>Aşkar edilmiş uyğunsuzluq</th></tr>
<tr><td>“Sessoday”</td><td>"Vitamin Grup İlaç Makina Kozmetik Bitkisel ve Tarım Ürünleri Gıda Turizm İth. İhr. San. Ve Tic. Ltd. Şti", Türkiyə Cümhuriyyəti</td><td rowspan="2">“Bion Medical” MMC</td><td>SD00522; 01.05.2023-01.05.2026</td><td rowspan="2">Tadalafil</td></tr>
<tr><td>“Kenzo Man”</td><td>"XM World Wide Marketinq Kozmetik İlaç Pazarlama San. Dış Tic. Ltd. Şti", Türkiyə Cümhuriyyəti</td><td>KM00525; 01.11.2023-01.11.2026</td></tr>
<tr><td>“Klavin Platinum”</td><td>"VITAPHARM-COM" MMC, Moldova Respublikası</td><td>“Miral” MMC</td><td>CVP/C-020220; 15.11.2023-15.11.2026</td><td>Sildenafil</td></tr>
</table>